**AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT XİDMƏTİ**

## 2025-Cİ İL ƏRZİNDƏ GÖRÜLMÜŞ İŞLƏR BARƏDƏ

# H E S A B A T

2025-ci il ərzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra – Xidmət) tərəfindən Əsasnaməsi ilə dövlət əmlakının idarə edilməsi, onun özəlləşdirilməsi, daşınmaz əmlakın dövlət reyestrinin və daşınmaz əmlakın vahid dövlət kadastrının tərtibi və aparılması, ünvan reyestri, dövlət torpaq kadastrı, yerquruluşu, torpaqların dövlət idarəetməsi, torpaq bazarının təşkili, torpaqlardan istifadəyə və onların mühafizəsi sahələrində müəyyən edilmiş vəzifələrin, habelə normativ hüquqi aktlarla və yuxarı dövlət orqanları tərəfindən verilmiş tapşırıqların, o cümlədən işğaldan azad edilmiş ərazilərin bərpası və quruculuğu ilə bağlı aidiyyəti tədbirlərin icrasına prioritet verilməklə müvafiq işlər görülmüşdür.

***Dövlət əmlakının özəlləşdirilməsi və investisiyaların cəlb edilməsi sahəsində***

2025-ci il ərzində dövlət əmlakının özəlləşdirilməsi sahəsində tədbirlər davam etdirilmiş, özəlləşdirmədən dövlət büdcəsinə 135,3 mln. manat vəsait daxil olmuşdur ki, bununla da illik büdcə proqnozunun icrası 123 % həcmində təmin edilmişdir.




Hesabat dövrü ərzində 236 kiçik dövlət müəssisə və obyekti, dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış 8 açıq səhmdar cəmiyyətinin səhmləri, 208 obyektin yerləşdiyi dövlət mülkiyyətində olan torpaq sahəsi özəlləşdirilmişdir.

31.12.2025-ci il tarixinə Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2021-ci il tarixli 2979 nömrəli və 30 dekabr 2022-ci il tarixli 3703 nömrəli Sərəncamları ilə özəlləşdirilməyə açılmış “Azərbaycan Sənaye Korporasiyası” ASC-nin 28 müəssisə və obyektindən 18-nin, “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının 11 müəssisə və obyektindən isə 7-sinin özəlləşdirilməsi təmin edilmişdir.

Hesabat dövründə investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilmiş “Bakı Ayaqqabı Fabriki” ASC və “Sumqayıt Tekstil” MMC-lərin alıcıları tərəfindən müqavilə öhdəliklərinin icrası yekunlaşdırılmış və müvafiq yekun hesabatlar Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim edilmişdir. Müqavilə öhdəlikləri qanunvericilikdə müəyyən edilmiş qaydada icra olunduğu üçün, alınmış səhmlər üzərində mülkiyyət hüquqlarının alıcılara keçməsi təmin edilmişdir.

“Bakı Neftqazmədən Avadanlıqları Zavodu” və “Tibb Texnikasının Təmiri Zavodu” və “Gəncə-Qənnadı” ASC-lərin dövlətə məxsus səhmlərinin, “Gəncə Xalça Kombinatı”, “Bakı Alüminium Profil” və “Bakı Mərmər Qranit” MMC-lərdəki dövlətə məxsus payların alıcıları

tərəfindən müəssisələrdə görülən işlərlə bağlı görüşlər keçirilmiş, investisiya qoyuluşlarının icrası ilə bağlı müzakirələr aparılmışdır.

Ümumilikdə investorlar tərəfindən hesabat ilində müəssisələrə 18,8 mln. manat investisiya qoyulmuş, 622 yeni iş yeri yaradılmışdır.

"Zabrat maşınqayırma zavodu" ASC-nin dövlətə məxsus səhmlərinin investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsi ilə əlaqədar investisiya müsabiqəsi keçirilmiş və müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət müsabiqə komissiyası tərəfindən müsabiqənin qalibi müəyyən olunmuş və müvafiq alqı-satqı müqaviləsi bağlanmışdır. Müqaviləyə əsasən, alıcı dövlət büdcəsinə 3,0 milyon manat vəsaitin köçürülməsi, 7,5 milyon manat məbləğində investisiya proqramının icrası və 100 iş yerinin yaradılmasına dair öhdəliklər götürmüşdür.

***Dövlət əmlakının idarə edilməsi və ondan səmərəli istifadəyə nəzarət sahəsində***

2025-ci il ərzində əvvəlki ilin yekunu olaraq 4023 müəssisə tərəfindən "Daşınmaz dövlət əmlakının qeydiyyat vərəqəsi"nə dair elektron qaydada hesabat təqdim edilmişdir. Dövlət əmlakının Registrindən dövlət əmlakının balansdan-balansa verilməsi, özəlləşdirmə, icarə və digər məqsədlər üçün 7000 dövlət əmlakına dair çıxarış sənədi hazırlanaraq verilmişdir.

Dövlət müəssisə və təşkilatlarından dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə edilməsi vəziyyəti haqqında ümumilikdə 4466 hesabat qəbul edilmişdir.

Dövlət əmlakının idarə edilməsi funksiyalarının icrası ilə bağlı aidiyyəti dövlət orqanları və təşkilatlarının müraciətləri əsasında 4 dövlət müəssisəsinin nizamnaməsinə dəyişikliklər təsdiq edilmiş, 2 dövlət müəssisəsi hüquqi şəxs kimi ləğv edilmiş, həmçinin ümumilikdə 208 dövlət müəssisəsi ilə bağlı bir sıra məsələlərə (hüquqi şəxsin təsis edilməsi, ləğvi, yenidən təşkili, Nizamnaməsinə dəyişikliklərin edilməsi, tabeçiliyinin dəyişdirilməsi, habelə təlim-tərbiyə müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi ilə bağlı) və aidiyyəti qurumlar tərəfindən təqdim edilmiş 105 normativ və qeyri-normativ layihə və sənədə baxılaraq müvafiq rəy və təkliflər təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında" 27 dekabr 2024-cü il tarixli, 431 nömrəli Sərəncamının icrası ilə bağlı Cəmiyyətin və onun tabeliyindəki qurumların balansında olan əmlaklarla bağlı yerlərdə inventarlaşdırma işləri aparılaraq dövlət əmlakının Registrində qeydə alınmış məlumatlar dəqiqləşdirilmiş, habelə həmin əmlaklarla bağlı təkliflər hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

"Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının icrası ilə əlaqədar Nazirlər Kabinetinin tapşırıqlarına uyğun olaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri çərçivəsində Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi, Azərbaycan Dövlət Tərcümə Mərkəzi və onun tabeliyindəki "ADTM Tərcümə Agentliyi" MMC-nin ləğvetmə prosesi tam başa çatdırılmış və hüquqi şəxslərin dövlət reyestrindən çıxarılması təmin edilmişdir.




Xidmətin sərəncamında olan və nizamnamə kapitalında dövlətin payı olan 67 səhmdar cəmiyyəti və 67 dövlət müəssisəsində dövlət əmlakının, o cümlədən istifadələrində olan torpaq sahələrinin qorunub saxlanılması və səmərəli istifadə olunması vəziyyətinin öyrənilməsi ilə bağlı mütəmadi monitorinqlər keçirilmiş, onların nəticələrinə dair yerlərdə tərtib edilmiş 1042 arayış və baxış aktı təhlil edilərək qanunvericiliyə uyğun tədbirlərin görülməsi təmin edilmişdir.

***Dövlət əmlakının icarəyə verilməsi və dövlət ehtiyaclarının ödənilməsi sahəsində***

Hesabat dövründə qeyri-yaşayış sahələrinin icarəyə verilməsinə dair 621 yeni icarə müqaviləsi bağlanılmış, 222 obyekt üzrə icarə müqavilələrinin müddəti uzadılmış, 804 obyektə dair bağlanılmış icarə müqavilələri ləğv edilmişdir. İlin sonuna qeyri-yaşayış sahələri üzrə qüvvədə olan müqavilələrin sayı 2705 ədəd təşkil etmişdir.




Torpaq sahələrinin icarəyə verilməsinə dair hesabat dövrü ərzində 4336 yeni icarə müqaviləsi bağlanılmış, 263 torpaq sahəsinə dair müqavilələrin müddəti uzadılmış, 891 torpaq sahəsinə dair icarə müqaviləsi ləğv edilmişdir. İlin sonuna torpaq sahələri üzrə qüvvədə olan müqavilələrin sayı 12900 ədəd olmuşdur.




2025-ci il ərzində dövlət əmlakının icarəyə verilməsindən dövlət büdcəsinə 46,2 mln. manat vəsait daxil olmuşdur ki, nəticədə ötən ilin müvafiq dövrü ilə müqayisədə bu məbləğ 23 % artmışdır. Ümumilikdə isə hesabat dövründə daşınmaz dövlət əmlakının icarəyə verilməsi ilə bağlı illik büdcə proqnozunun icrası 135.9 % həcmində təmin edilmişdir.




***Torpaqların idarə edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi sahəsində***

2025-ci il ərzində 10877.62 ha torpaq sahəsinin kateqoriyasının və məqsədli istifadə təyinatının dəyişdirilməsi ilə bağlı 734 müraciət daxil olmuşdur. Əvvəlki dövrlərdə daxil olmuş müraciətlər nəzərə alınmaqla, 122 müraciət üzrə 276.73 ha torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi ilə bağlı sərəncam layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Əvvəlki dövrlərdə Nazirlər Kabinetinə təqdim edilmiş müraciətlər nəzərə alınmaqla, 11 müraciət üzrə 225.60 ha torpaq sahəsinin kateqoriyası Nazirlər Kabinetinin sərəncamı ilə dəyişdirilmişdir. Əvvəlki dövrlərdə daxil olmuş müraciətlər nəzərə alınmaqla, 91 müraciət üzrə 3877.50 ha torpaq sahəsinə dair sənədlər rəylərinin alınması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.




Dövlət mülkiyyətində olan 80452.66 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə verilməsinə razılıq bildirilməsi ilə bağlı 618 müraciət daxil olmuşdur. Əvvəlki dövrlərdə daxil olmuş müraciətlər nəzərə alınmaqla, 55362.69 ha torpaq sahəsi üzrə 478 müraciətə razılıq verilmişdir.




Dövlət mülkiyyətində olan 589.25 ha qeyri-kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə verilməsinə rəy bildirilməsi ilə bağlı 581 müraciət daxil olmuşdur.

Əvvəlki dövrlərdə daxil olmuş müraciətlər nəzərə alınmaqla, 5805.72 ha torpaq sahəsi üzrə 290 müraciətə, o cümlədən işğaldan azad olunmuş ərazilərdə salınan yaşayış məntəqələri üzrə 5540.57 ha olmaqla 209 müraciətə müsbət rəy verilmişdir.




Bələdiyyə ərazisində yerləşən 5079.96 ha torpaq sahəsinin ayrılmasına rəy bildirilməsi ilə bağlı 1590 müraciət daxil olmuşdur. Əvvəlki dövrlərdə daxil olmuş müraciətlər nəzərə alınmaqla, 5069.89 ha torpaq sahəsi üzrə 1581 müraciətə (fərdi yaşayış – 1120 (83.01 ha), kənd təsərrüfatı – 401 (4121.82 ha), sahibkarlıq-tikinti – 60 (865.07 ha), eyni zamanda mülkiyyət (bilavasitə) – 855 (58.82 ha), mülkiyyət (hərrac və müsabiqə) – 301 (33.62 ha), icarə (hərrac və müsabiqə) – 425 (4977.45 ha)) müsbət rəy verilmişdir.




2025-ci il ərzində torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti tədbirləri çərçivəsində ölkənin şəhər və rayonlarında ümumilikdə 25964 olmaqla 9068 planlı və 16896 plandankənar monitorinq keçirilmişdir.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tələblərini pozan fiziki və hüquqi şəxslər barəsində 1266 inzibati protokol yazılmaqla 585.52 min manat cərimə tətbiq edilmişdir. Hesabat dövrü ərzində əvvəlki illərdə tətbiq edilmiş cərimələr də daxil olmaqla ümumilikdə

405.34 min manat vəsaitin (bundan 261.8 min manatını 2025-ci il ərzində tətbiq edilmiş cərimələr təşkil edir) dövlət büdcəsinə ödənilməsi təmin olunmuşdur.




Monitorinqlər zamanı aşkar edilmiş pozuntu hallarının aradan qaldırılması istiqamətində səlahiyyətləri daxilində tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına 21067 məktub, o cümlədən Cinayət Məcəlləsinin 188-ci maddəsinə uyğun olaraq tədbirlərin görülməsi məqsədilə isə daxili işlər orqanlarına 4296 məktub ünvanlanmışdır.

***Normativ hüquqi tənzimləmə, dövlət proqramlarının və strategiyaların icrası sahəsində***

2025-ci il ərzində normativ hüquqi təminat sahəsində 2-si Azərbaycan Respublikasının Qanun layihəsi, 5-i Azərbaycan Respublikası Prezidentinin Fərman layihəsi, 2-si Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi, 2-si Kollegiya qərarı layihəsi olmaqla 11 layihə hazırlanmışdır. Bunlardan 1 kollegiya qərarı layihəsi, 1 Nazirlər Kabinetinin qərarı, 1 qanun və 2 fərman layihəsi münasibət bildirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarına təqdim edilmiş, 1 kollegiya qərarı layihəsi rəsmiləşmiş, 1 Nazirlər Kabinetinin qərarı və 1 fərman layihəsi NK-ya təqdim edilmiş, 1 qanun, 2 fərman layihələri isə dövlət orqanlarına təqdim edilmə mərhələsindədir. Eyni zamanda, dövlət orqanları və qurumları tərəfindən hazırlanmış və münasibət bildirilməsi üçün təqdim olunmuş 572 layihəyə baxılmışdır.

Həmçinin, hazırlanmış layihələr əsasında hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2015-ci il 13 yanvar tarixli 439 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" 2015-ci il 30 oktyabr tarixli 664 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 iyul

2025-ci il tarixli 444 nömrəli Fərmanı, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 14 iyul 2025-ci il tarixli 244-VIIQD nömrəli Qanun, “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 31 oktyabr 2025-ci il tarixli 282-VIIQD nömrəli Qanun, “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” 2019-cu il 27 iyun tarixli 759 nömrəli və “Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında” 2021-ci il 7 oktyabr tarixli 1455 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2025-ci il tarixli 345 nömrəli Fərmanı qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”ndan irəli gələn məsələlərin icrası istiqamətində işlər görülmüşdür.

“Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 18 iyun tarixli 356s nömrəli Sərəncamına əsasən “Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihəsinin hazırlanması məqsədilə “İqtisadi artım” üzrə Alt İşçi qrupun prioritet istiqamətlərinə dair hazırlanmış ilkin layihənin nümunəvi formasına uyğun olaraq tədbirlər üzrə təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 dekabr 2024-cü il tarixli 633s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində 2025-ci il ərzində görülmüş işlər barədə məlumatlar təsdiqedici sənədlərlə birgə hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

İqtisadiyyat Nazirliyinin strateji fəaliyyətinin sistemli və səmərəli həyata keçirilməsi, habelə görülən işlərin nəticələrinin rəhbərlik qarşısında hesabatlılığının təmin edilməsi məqsədilə iqtisadiyyat nazirinin 5 iyun 2025-ci il tarixli F-83 nömrəli əmri ilə təsdiq edilmiş “İqtisadiyyat Nazirliyinin 2025-ci il üzrə Fəaliyyət Planı” çərçivəsində görülən işlər barədə illik hesabat hazırlanmışdır.

***Hərracların təşkili sahəsində***

Hesabat dövründə dövlət əmlakının özəlləşdirilməsi məqsədilə ümumilikdə 58 hərrac təşkil edilmiş, bu hərraclarda 1180 obyekt, səhmdar cəmiyyətlərinin səhm paketi və daşınar əmlak satılmışdır. Hərraclar vasitəsilə özəlləşdirilmiş dövlət əmlakının ümumi satış qiyməti 13,1 mln. manatdan artıq olmuşdur.




Kiçik dövlət müəssisə və obyektlərinin satışı ilə bağlı ümumilikdə 53 hərrac keçirilmiş, 1168 əmlak (7 kiçik dövlət müəssisəsi, 1 yarımçıq tikili və 1160 nəqliyyat vasitəsi) satılmış, ümumi satış qiyməti 12.6 mln. manat təşkil etmişdir. Səhmdar cəmiyyətlərinin səhm paketlərinin satışı üzrə 4 pul hərracı təşkil edilmiş və 8 ASC-nin səhm paketi satılmışdır.




Ümumilikdə, hərraclarda iştirak etmək üçün 2446 sifariş verilmişdir. Hərraclarda iştirak etmək məqsədilə “Elektron hərrac” proqram təminatı vasitəsilə 149 onlayn qoşulma baş tutmuşdur. Hərraca çıxarılmış əmlaklar üzrə 644 elektron sifariş qəbul edilmişdir.

Hərraclarda satılan nəqliyyat vasitələrinin satış qiyməti 4,3 mln. manat olmuşdur. Hesabat dövründə 484 nəqliyyat vasitəsinin satışı rəqabətli keçmişdir ki, bununla da dövlət büdcəsinə əlavə olaraq 679,7 min manat vəsait daxil olmuşdur.

Dövr ərzində ümumi dəyəri 250 min manat olan 101 ədəd sahibsiz qalmış dövlət mülkiyyətinə keçən əmlak təhvil götürülmüşdür.

Dövlət nəfinə müsadirə edilmiş əmlakların satışı ilə bağlı 5 hərrac keçirilmiş və satılmış əmlakın dəyəri 1,6 mln. manat olmuşdur.

Dövr ərzində bələdiyyə mülkiyyətində olan 557 torpağın mülkiyyətə və ya icarəyə verilməsi məqsədilə 51 şəhər və rayon üzrə 49 torpaq müsabiqəsi və 147 torpaq hərracı təşkil edilmiş, 499 torpaq mülkiyyətə və icarəyə verilmiş, 58 bələdiyyə torpağının müsabiqə və hərracı baş tutmamışdır. Mülkiyyətə verilmiş torpaqların satış qiyməti 1,7 mln. manat, icarəyə verilmiş torpaqların icarə qiyməti isə 508 min manat təşkil etmişdir. Mülkiyyətə və ya icarəyə verilən bələdiyyə torpaqlarının ümumi sahəsi 3033,58 ha (15,5 ha mülkiyyət, 3018,08 ha icarə) təşkil etmişdir. Onlardan sahibkarlıq məqsədilə 13,14 ha olan 55, fərdi yaşayış evinin tikintisi məqsədilə 5,65 ha olan 76, kənd təsərrüfatı məqsədilə 814,13 ha olan 213, heyvandarlıq məqsədilə 2200,66 ha olan 155 torpaq sahəsi mülkiyyətə və ya icarəyə verilmişdir.

***Daşınmaz əmlakın dövlət kadastrı və hüquqların dövlət qeydiyyatı, ünvan reyestrinin aparılması sahəsində***

Hesabat ilində ölkə üzrə 364.1 min daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınmış, bu göstəricinin 70,6 mini (19,4%) ilkin, 293,5 mini (80,6%) isə təkrar qeydiyyata aid olmuşdur. Mülkiyyət hüquqlarının qeydiyyatı aparılan əmlaklardan 186,6 mini (51.2%-i) torpaq sahəsi, 92,9 mini (25,5%-i) mənzil, 71,7 mini (19,7%-i) fərdi yaşayış və bağ evi, 8,9 mini (2,4%-i) qeyri-yaşayış sahəsi, 3,1 mini (0.9%-i) qeyri-yaşayış binası, 728-i (0,2%-i) əmlak kompleksi kimi müəssisələr, 112-si (0,03%-i) isə çoxmərtəbəli yaşayış binaları təşkil etmişdir.




2025-ci ildə 262,3 min daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılmış və texniki sənədlər (pasport və plan və ölçü) tərtib edilmiş, 63,8 min ipoteka müqaviləsi, 7,4 min yüklülük (icarə, istifadə) dövlət qeydiyyatına alınmış, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara onların məhdudlaşdırılmasına (yüklülüyə) dair dövlət reyestrindən 285,1 min arayış verilmişdir.




"Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 oktyabr 2021-ci il tarixli 1455 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasının təmin olunması ilə bağlı daxil olmuş müraciətlər əsasında yanvar-dekabr ayları ərzində 3885 torpaq sahəsinə dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilmişdir. Ümumilikdə, qeyd olunan Fərman çərçivəsində 31.12.2025-ci il tarixə qədər 60933 torpaq sahəsinə dair mülkiyyət sənədi ilk dəfə verilmişdir.

Hesabat dövründə ölkə ərazisində və işğaldan azad edilmiş ərazilərdə dövlət torpaq kadastrı işləri, o cümlədən torpaqların elektron kadastr uçotu və ünvanların təyin edilməsi sahəsində işlər davam etdirilmişdir.

2025-ci il ərzində torpaqların elektron kadastr uçotu sahəsində ümumilikdə 403,4 min ha ərazidə yerquruluşu üzrə çöl-ölçmə işləri həyata keçirilmişdir.




Torpaq tədqiqatı üzrə 2025-ci il ərzində 282,2 min ha çöl-torpaq tədqiqat işləri aparılmışdır. Bundan dövlət torpaqları üzrə 280,7 min ha, hüquqi və fiziki şəxslərdən daxil olmuş müraciətlər əsasında isə 1399,46 ha təşkil etmişdir. Hesabat ilində ümumilikdə 435,6 min ha torpaq tədqiqatı məlumatları Torpaqların Elektron Kadastrı Uçotu İnformasiya Sisteminə (TEKUİS) daxil edilmiş, torpaq və şorlaşma xəritələri tərtib edilərək onlara dair hesabatlar hazırlanmışdır.




Müvafiq dövr ərzində çöl geobotaniki tədqiqatlar üzrə ümumi iş həcmi 194,3 min ha təşkil edir. Geobotaniki tədqiqatlar üzrə 231,2 min ha kameral işlər görülərək əldə olunmuş məlumatlar TEKUİS-ə daxil edilmişdir. Bundan 135,7 min ha dövlət torpaqları üzrə, 95,5 min ha işğaldan azad edilmiş əraziləri əhatə edir.




Hesabat dövründə ümumilikdə 795,1 min ha torpaq sahəsi üzrə laboratoriya işləri yerinə yetirilmişdir. Bundan torpaq tədqiqatı işləri üzrə 458,5 min ha sahədə, geobotaniki tədqiqat üzrə 336,6 min ha sahədə işlər yerinə yetirilmişdir. Torpaqların bonitirovkası üzrə 325,6 min ha sahədə və iqtisadi qiymətləndirilməsi üzrə 168,3 min ha sahədə isə kameral qaydada işlər görülərək müvafiq məlumatlar TEKUİS-ə daxil edilmişdir.

Hesabat dövründə ölkənin şəhər, rayon mərkəzi və qəsəbələrdə 311, kənd yaşayış məntəqələrində 3299 nəqliyyat infrastrukturu obyektləri müvafiq icra hakimiyyəti orqanları tərəfindən adlandırılmış və Ünvan Reyestri İnformasiya Sisteminə daxil edilmişdir. Ölkənin rayon və şəhərləri üzrə ümumilikdə Ünvan Reyestri İnformasiya Sisteminə (ÜRİS) daxil edilmiş məlumatlardan 56475 giriş, 71366 daxili ünvan məlumatlarının keyfiyyəti yoxlanılaraq təsdiq edilmişdir.




***İşğaldan azad edilmiş ərazilərdə görülmüş tədbirlər barədə***

Hesabat dövründə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əks etdirilmiş tədbirlər, o cümlədən, torpaqların elektron kadastr uçotu, yerquruluşu və torpaq tədqiqatları istiqamətində işlər davam etdirilmişdir.

Xocavənd rayonu üzrə 45611,52 ha, Kəlbəcər rayonu üzrə 3695,77 ha, Ağdərə rayonu üzrə 33260,55 ha və Şuşa rayonu üzrə 12962,19 ha ümumilikdə 95530.03 ha ərazi üzrə geobotaniki məlumatlar TEKUİS-ə miqrasiya edilərək ümumilikdə 114 obyektin geobotaniki xəritəsi tərtib edilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə ümumilikdə 191 küçə üzrə 9153 giriş ünvanı, 2943 daxili ünvan təyin edilərək Ünvan Reyestri İnformasiya Sisteminə daxil edilmişdir.

İl ərzində işğaldan azad edilmiş ərazilərdə torpaq tədqiqatı üzrə 140,2 min ha, geobotaniki tədqiqat üzrə isə 95,5 min ha ərazidə kameral işlər aparılmışdır.

İşğaldan azad edilmiş ərazilərdə ümumilikdə 233,7 min ha sahədə laboratoriya işləri yerinə yetirilmişdir. Torpaq tədqiqatı üzrə 177 min ha, geobotaniki tədqiqat üzrə 56,7 min ha sahədə laboratoriya işləri aparılmışdır.

İşğaldan azad edilmiş ərazilərdə yerləşən torpaq sahələrinin ayrılmasına rəy bildirilməsi ilə bağlı 2025-ci ildə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən 252 müraciət daxil olmuşdur. Əvvəlki dövrlərdə daxil olmuş müraciətlər nəzərə alınmaqla 5540,57 ha torpaq sahəsi üzrə 209 müraciətə müsbət rəy verilmişdir.

İşğaldan azad edilmiş ərazilərdə yerləşən 5930 ha torpaq sahəsinin icarəyə verilməsinə razılıq bildirilməsi ilə bağlı 2025-ci ildə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 4 müraciət daxil olmuşdur. Əvvəlki dövrlərdə daxil olmuş işlər nəzərə alınmaqla 2691,66 ha torpaq sahəsi üzrə 6 müraciətə razılıq verilmişdir.

***Elektron xidmətlər və innovasiyaların tətbiqi sahəsində***

Hesabat dövrü ərzində Dövlət Xidmətlərinin Elektron Reyestrində (dxr.gov.az) mövcud olan 82 xidmət üzrə hüquqi və fiziki şəxslərdən, bələdiyyələrdən, dövlət qurumlarından 3072746 müraciət daxil olmuşdur.




İqtisadiyyat Nazirliyinin "İş proseslərinin optimallaşdırılması ilə bağlı bir sıra məsələlər haqqında" 08 iyul 2025-ci il tarixli F-96 nömrəli əmr və həmin əmrlə təsdiq edilmiş "İqtisadiyyat Nazirliyi üzrə iş proseslərinin idarə edilməsinə dair Metodiki Göstəriş"inə əsasən iş proseslərinin optimallaşdırılması çərçivəsində əldə edilmiş nəticələrə dair məlumatların rübdə bir dəfə Koordinasiya qrupuna təqdim edilməsi ilə bağlı qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və tabeliyindəki qurumların fəaliyyət sahələri üzrə biznes proseslərinin effektiv idarə olunması, rəqəmsal inteqrasiya imkanlarının dəyərləndirilməsi və avtomatlaşdırılma potensialının araşdırılması məqsədilə biznes proseslərinin rəqəmsallaşdırılması və optimallaşdırılması barədə məlumatlar ümumiləşdirilərək aidiyyəti üzrə təqdim edilməsi üçün göndərilmişdir.

"ASAN xidmət indeksi" üzrə 2025-ci ilin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin ilkin nəticələri ilə tanış olunmuş və nəticələrə dair münasibət aidiyyəti üzrə təqdim edilmişdir.

Xidmət rəisinin 25 fevral 2025-ci il tarixli F-15 nömrəli əmri təsdiq edilmişdir. Əmrlə Xidmət üzrə əsas və yardımçı dövlət informasiya ehtiyatları və sistemlərinin məqsədi, istifadə vəziyyəti, funksional imkanları, o cümlədən sözügedən informasiya sistemlərində aşkar edilən problemlərin təhlili, həmin problemlərin həlli istiqamətində tapşırıqlar müəyyən edilmişdir.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən göstərilən dövlət xidmətlərinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması və elektronlaşdırılmasının sürətləndirilməsinə dair Xidmət rəisinin 16 aprel 2025-ci il tarixli F-28 nömrəli əmrinin 3-cü bəndinin icrası çərçivəsində Xidmətin struktur bölmələri və tabeliyində olan qurumları tərəfindən təqdim edilən dövlət xidmətlərinin yenilənmiş siyahısı və həmin xidmətlər barədə zəruri məlumatlar əsasında araşdırma aparılmış, elektronlaşdırılma və avtomatlaşdırılma səviyyəsi, xidmətlərin mövcud qanunvericiliyin tələblərinə uyğunluğu təhlil edilmiş və bununla bağlı fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər hazırlanmışdır.

"Rəqəmsal İnkişaf Konsepsiyasının icrası haqqında" iqtisadiyyat nazirinin 5 iyun 2025-ci il tarixli 3-21/3-1-F-80/2025 nömrəli əmrinin icrasının təmin edilməsi barədə Xidmət rəisinin 3 iyul 2025-ci il tarixli İ-13 nömrəli əmri təsdiqlənmiş, həmçinin "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının 5.1, 5.2 və 5.3-cü bəndlərinin icrası ilə bağlı qurumlardan daxil olmuş məlumatlar ümumiləşdirilərək yekun hesabatlar aidiyyəti üzrə təqdim edilmişdir.

"Torpaqların kateqoriyalarına dair müraciətlərə baxılması" elektron xidmətində daxil olmuş müraciətlərin aidiyyəti qurumlara rəy üçün göndərilməsi və rəylərin əldə olunması mexanizminin elektronlaşdırılması prosesi ilə bağlı işlər görülmüşdür.

Daşınmaz əmlaklara, o cümlədən torpaq sahəsinə dair bölgü sxeminin tərtib edilməsi və elektron üsulla ərizəçiyə təqdim edilməsi xidmətində təkmilləşmələr aparılmış, hazır elektron çıxarışın, texniki pasportun, torpaq sahəsinin planı və ölçüsünün, həmçinin qiymətləndirmə arayışının “Elektron Hökumət” informasiya sisteminə (myGov) yerləşdirilməsi, habelə “Elektron Hökumət” informasiya sistemi (myGov) üzərindən elektron üsulla real vaxt rejimində ərizəçi (hüquq sahibi) tərəfindən əldə edilməsi imkanı təmin edilmişdir.